# Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin keçirilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi müdirinin əmri

Azərbaycan Respublikası təhsil nazirinin 15.03.2019-cu il tarixli, F-136 nömrəli "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi barədə" əmrinin icrasını təmin etmək, Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin bədii nailiyyətlərlə zəngin yaradıcılığı haqqında məktəbliləri məlumatlandırmaq məqsədilə "Bakı Şəhəri üzrə Təhsil İdarəsi haqqında Əsasnamə"nin 15.6-cı bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin keçirilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Tədbirlər Planı (Əlavə 1) və təşkilat komitəsinin tərkibi (Əlavə 2) təsdiq edilsin.

2. Ümumtəhsil müəssisələri və Uşaq-gənclər inkişaf mərkəzlərinin rəhbərləri Tədbirlər Planının icrasını təmin etsinlər və 10 dekabr 2019-cu il tarixinədək görülmüş işlərin icrası barədə hesabatı Bakı Şəhəri üzrə Təhsil İdarəsinə təqdim etsinlər.

3. Ümumi təhsil sektoru (S.Bektaşi) yubiley ilə bağlı təşkilati işlərin həyata keçirilməsini təmin etsin.

4. Ümumi sektor (S.Rəsulova) əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

5. İctimaiyyətlə əlaqələr sektoru (B.Məmmədov) əmrin və Tədbirlər Planının İdarənin internet saytında yerləşdirilməsini və keçirilən tədbirlərin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasını təmin etsin.

6. Əmrin icrasına nəzarət müdir müavini İ.Abdullayevaya həvalə olunsun.

Əsas: Azərbaycan Respublikası təhsil nazirinin 15.03.2019-cu il tarixli, F-136 nömrəli əmri.

***Rəşad Tağıyev,***

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri***

***25 aprel 2019-cu il***

***№ F-198***

---

**Tədbirlər Planı**

---